AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

Əlyazması hüququnda

HƏSƏNZADƏ AYLA AYDIN QIZI

# GÜLCAHAN GÜLƏHMƏDOVA-MARTINOVANIN YARADICILIĞINDA XARİCİ VƏ MİLLİ DRAMATURGİYA NÜMUNƏLƏRİNİN TƏCƏSSÜMÜ

6212.01 Teatr sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

A V T O R E F E R A T I

BAKI-2014

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Teatrşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər:
Sənətşünaslıq üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Timucin İlyas oğlu Əfəndiyev

Rəsmi opponentlər:
Sənətşünaslıq üzrə elmləri doktoru, professor İsrafil Ramazan oğlu İsrafilov
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Məleykə Alı qızı Məmmədova

Aparıcı təşkilat: Teatr xadimləri ittifaqı

Dissertasiyanın müdafiəsi 2014-cu il "iyun" ayının "25"-də saat "14:00" –da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində FD.02.091 Dissetasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1065,Bakı, İnşatçılar prospekti 39.Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının iclas otağı

Dissrtasiya işi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat: "26" May 2014-cu ildə göndərilmişdir

Dissertasiya Şurarasının FD.02.091
eimi katibi, Pedaqogika üzrə fəlsəfə doktoru, professor M.C.Manafova

## Dissertasiyasının ümumi səciyyəsi

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasının sosial-siyasi, iqtisadi inkişafı, müxtəlif fəaliyyət sahələrindəki uğurları, dünya masştabında tanınması, xarici əlaqələr şəbəkəsində etibarlı tərəfdaş kimi qəbul edilməsi, ölkədə bərqərar olmuş siyasi-iqtisadi stabillik müasir dövrün təkzibedilməz faktıdır. Müstəqil Azərbaycan göz önündəcə dəyişir, başqalaşır, yeniləşir, xalqın milli adət-ənənələrilə yanaşı demokratik dəyərlərə sahib çıxır və bu yeniləşmə prosesi son dərəcə operativ bir tərzdə gerçəkləşir. Sosial-siyasi, iqtisadi müstəvidə qurulan ilişgilər, münasibətlər Azərbaycanın permanent inkişafının və onun dünya siyasətinə, dünya iqtisadiyyatına, dünya mədəniyyətinə intensiv inteqrasiyasının qarantına çevrilir. Təbii ki, bu proseslər çağdaş Azərbaycanın elm və mədəniyyətinə də təsirsiz ötüşə bilməz. Son zamanlarda elm və mədəniyyətin ayrı-ayrı sahələrində müşahidə edilən canlanma da bu fikrin doğruluğunu təsdiqləyir. Ona görə bu gün, tədqiqatçının fikrincə, müasir humanitar elmin çoxsaylı məqsədlərindən biri azərbaycanlı düşüncəsinin inkişafını təmin etmək və onu səviyyəcə sosial-siyasi, iqtisadi inkişafla bərabərləşdirmək, tənləşdirməkdir.

Əgər çağdaş Azərbaycan Dövlətinin yürütdüyü mədəniyyət siyasətinin mühüm prioritetlərindən birincisi sürətlə müasirləşmək və dünya mədəniyyətinə aktiv şəkildə inteqrasiya olunmaqdırsa, ikincisi milli mədəni irsi qorumaq, onun milli mənəvi dəyərlərin daşıyıcısı kimi öyrənilməsinə və mənimsənilməsinə, yayımlanmasına, tirajlanmasına şərait yaratmaqdır. Odur ki, Azərbaycan mədəniyyəti tam olaraq müstəqil Azərbaycan Dövlətinin qayğısı və mütəmadi nəzarəti altındadır. Elə bunun nəticəsidir ki, çağdaş zəmanəmizdə Azərbaycan mədəniyyətinin bütün sahələri total şəkildə inkişaf etdirilir.

Təbii ki, Azərbaycan Dövlətinin Azərbaycan teatr mədəniyyətinə göstərdiyi qayğı da böyükdür. Bunun rəsmi sübutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci ildə "Azərbaycanda teatr sənətinin inkişaf etdirilməsi haqqında" qəbul elədiyi qərar və bu tarixdən cəmi ikicə il sonra

"Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramını təsdiqləyərək imzaladığı sərəncamdır. Bununla da cənab Prezident faktiki olaraq Azərbaycan teatrının inkişafından ötrü bütün istiqamətlərdə yaşıl işıq yandırıldığını bəyan elədi. Əlbəttə ki, bu qərar və sərəncam Azərbaycan teatrının inkişafı naminə kompleks işlərin görülməsini, dünya teatr məkanı ilə əlaqələrin intensivləşməsini, və ən başlıcası, Azərbaycan teatrının professional yüksəlişini hədəfləyirdi. Teatr sənətilə bağlı tarixi və nəzəri aspektlərdə yeni tədqiqatların aparılması, monoqrafiyaların yazılması və çap etdirlməsi də bu istiqamətdə gerçəkləşən proyektlər sırasındadır.

Ona görə də əminliklə demək mümkündür ki, Respublika Prezidentinin qərar və sərəncamından irəli gələn məsələlər işığında Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında rejissor vəzifəsində uzun müddət çalışmış Gülcahan Şüaulla qızı Güləhmədova-Martınovanın yaradıcılığının öyrənilməsi və araşdırılması yetərincə aktual səslənir. Bu, bir tərəfdən mövzunun siyasi-ideoloji (milli mədəniyyətdə tolerantlıq) aspektinin, digər tərəfdən isə keçmiş mədəni irsin mənimsənilməsinin aktuallığıdır.

Dissertasiyanın siyasi-ideoloji aspektdə aktuallığını vurğulayan bəzi digər məqamlar da tədqiqat mövzusunun adında birbaşa şəkildə kodlaşdırılıb və mədəniyyətlər arasında inteqrasiyanın zəruriliyi məsələsini qabardıb. Bu onu bildirir ki, araşdırma mövzusunun adında "Xarici və milli" sözləri əbəsdən bir araya gətirilməyib. Bunun çox vacib, siyasi-ideoloji, kulturoloji səbəbləri var. Nədən ki, müasir dövrdə humanitar elmlər kontekstində aparılan mübahisə və müzakirələr çox tez-tez "milli identifikasiya və inteqrasiya" problemlərinə toxunur. Odur ki, tədqiqat mövzusunun adı G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığına Xarici və milli dramaturgiya nümunələrinin Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində gerçəkləşməsi kontekstindən yanaşmağı şərtləndirir. Çünki Güləhmədova-Martınova yaradıcı bir şəxsiyyət kimi, bir rejissor kimi dünya mədəniyyətinə açıq və dünya teatr mədəniyyətindən aktivcəsinə bəhrələnmiş bir sənətçidir. Amma bununla yanaşı o, milli teatrımızın ənənələri müstəvisində tərbiyə almış, Azərbaycan rejissor məktəbinin örnəklərini bu örnəkləri yaratmış

şəxsiyyətlərin məhz özlərindən mənimsəyib formalaşmış, Azərbaycanın ustad rejissor və aktyorlarından dərs almış bir teatr xadimidir. Bu xüsusda, mövzunun aktuallığına bir işarə kimi, o da qeyd olunmalıdır ki, Azərbaycan teatr mədəniyyəti kontekstində və Azərbaycan rejissorları sırasında məhz Güləhmədova-Martınova bütün yaradıcılığı boyu xarici dramaturgiyası nümunələrinə ən çox müraciət etmiş teatr rejissorlarından biridir.

Lakin bu kontekstdən kənarda da mövzu Azərbaycan teatrşünaslığı üçün yetərincə aktualdır. Bunun bir neçə səbəbləri mövcuddur: birincisi, Gülcahan Güləhmədova-Martınova peşəkar teatr təhsili görmüş və təhsilini başa vuran kimi teatrda çalışmağa başlamış Azərbaycanın ilk qadın teatr rejissorudur; ikincisi, 90 yaşlı Gülcahan xanım XX əsrin 50-cı illərindən etibarən Azərbaycanda teatr prosesinin, milli teatrın inkişafının canlı şahididir və böyük teatr təcrübəsinə malik bir şəxsiyyətdir; üçüncüsü, onun yaradıcılığı Azərbaycan Dövlət Rus Dram Teatrı tarixinin, bu teatrın milli mədəniyyətdə mövcudluq tərzinin hərtərəfli işıqlandırılması üçün əla praktiki materialdır; dördüncüsü, rejissor Gülcahan Güləhmədova-Martınovanın tamaşalarında keçmiş Sovetlər Birliyinin siyasi-ideoloji antologiyası, mədəniyyəti və humanist dəyərləri, habelə, ziddiyyətli və repressiv idarəetmə metodlarının fəlsəfi mahiyyəti plastik formalarda güzgülənir və həmin dövrün müxtəlif rakurslardan görünüb tanınmasına, anlaşılmasına şərait yaradır; beşincisi, bu rejissorun 1970-ci ildə hazırladığı "Həmişə təmizlikdə" tamaşası məşhur sovet kinorejissoru Eldar Ryazanovun söylədiyi kimi öz dövründə 400 dəfə anşlaqla oynanılıb və mütləq rekord qazanıb![1] Elə buradaca onu qeyd etmək yerinə düşər ki, o vaxt hələ kinorejissor Eldar Ryazanov Sovetlər Birliyinin hər guşəsində böyük uğur qazanacaq eyniadlı filmini çəkməmişdi. Bütün bunlarsa o deməkdir ki, həqiqətən, keçmiş SSRİ miqyasında tamaşası belə bir uğur Gülcahan Güləhmədova-Martınovanın yaradıcılığının, onun sənətçi üslubunun, teatrda iş metodikasının geniş tədqiqat çərçivəsində öyrənilməsinin vaxtı çoxdan yetişib.

[1] Daha ətraflı bax: Шариф А.А. Спасибо. Гюльджахан-ханум с любовью // Город. – 2010. – № 2. – апрель. – С. 22-28.

**Mövzunun zaman hüdudları.** Gülcahan Güləhmədova-Martınovanın rejissorluq fəaliyyəti konkret şəkildə Azərbaycan teatr mədəniyyətinin 60 ilini özündə ehtiva edir. 60 ildən bir qədər artıq bir müddətə sığışan yaradıcılığın özü artıq müstəqil bir tarixdir. Güləhmədova-Martınova Bakı teatr texnikumunu 1952-ci ildə bitirəndən sonra Rus Dram Teatrında yaradıcılıq fəaliyyətinə başlayır və 1952-82-ci illər məsafəsində, yəni 30 il, bu teatrda rejissor assisenti və rejissor kimi çalışır. Yaradıcılığının digər 30 ilini isə bu qadın pedaqoji fəaliyyətə sərf edir, taleyini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetilə, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə, və ələxüsus da, bu Akademiyanın nəzdində fəaliyyət göstərən Şövkət Məmmədova adına Opera studiyası ilə bağlayır, bu studiyanın baş rejissoru olur. Deməli, faktiki surətdə tədqiqat mövzusunun zaman hüdudları Azərbaycan teatr mədəniyyəti tarixinin 1952-2012-ci illərilə müəyyənləşir. Bu zaman hüdudlarında Gülcahan Güləhmədova-Martınova 60-dan artıq müxtəlif səpkili pyeslərə səhnə quruluşu verməyə və Azərbaycanda sayılıb-seçilən rejissor kimi tanınmağa macal tapır.

**Mövzunun işlənilmə dərəcəsi.** Təfsilatına varmamışdan öncə onu qeyd etmək vacibdir ki, Azərbaycan teatrşünaslığında Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatı, Azərbaycan Musiqi Akademiyasının professoru, Şövkət Məmmədova adına Opera studiyasının baş rejissoru Gülcahan Güləhmədova-Martınovanın yaradıcılığını araşdıran, onun tamaşalarının konseptual mahiyyətini açan, bu tamaşalarda rejissor və aktyor işini, üslub məsələlərini təhlilə çəkən elmi dəyərə malik sanballı, fundamental tədqiqat əsəri yazılmamışdır. Bu o anlama gəlmir ki, Gülcahan Güləhmədova-Martınova, ümumiyyətlə, diqqətdən kənarda qalmışdır. Onun fəxri adları, titulları, vəzifəsi və müasir mədəni həyatda yaradıcı aktivliyi göstərir ki, Gülcahan Güləhmədova-Martınova haqqında ciddi monoqrafiyanın və ya tədqiqat əsərinin yazılmaması dövlətin və bu rejissorun problemi deyil. Nə qədər acınacaqlı olsa da söylənilməlidir ki, bu yöndə günah yenə Azərbaycan teatrşünaslığının boynuna düşür və hazırki dissertasiya həmin günahdan nisbətən qurtulmaq cəhdidir.

Hərçənd danılmaz fakt budur ki, dövrü mətbuat G.Ş.Güləhmədova-Martınovaya münasibətdə bir qayda olaraq lütfkarcasına yanaşıb. Xüsusilə, 2000-ci ildən etibarən onun həyat və yaradıcılığı barədə Azərbaycan Respublikasının müxtəlif qəzet və dərgilərində, əksərən isə qlamur jurnalların səhifələrində geniş məlumatlar verilmiş, publisistik məqalələr dərc etdirilmişdir. Əlbəttə ki, bunların sırasında teatrşünas Azad Şərifin, jurnalistlər Nadejda İsmayılovanın, Aliyə Zamanovanın[1] məqalələrini fərqləndirməyə dəyər. Əgər Azad Şərifin və Nadejda İsmayılovanın məqalələrini sənətkar haqqında bədii oçerk kimi təsnif etmək mükündürsə, Aliyə Zamanovanın irihəcmli məqalələr silsiləsi səciyyə etibarı ilə, mahiyyət etibarı ilə novelladır, bir sıra faktoloji təhriflərlə dolu bir novelladır. Hər üç müəllifin əsəri əsasən Gülcahan Güləhmədova-Martınovanın həyat faktları üzərində qurulub. Təəssüf ki, bu yazılarda ayrı-ayrı tamaşalar barəsində bəzi cümlələr işlədilsə də, orada mükəmməl analitik təhlil yoxdur. Aliyə Zamanovanın bədii-sənədli novellasında isə bəzi tamaşaların təhlililə bağlı edilmiş cəhdlər fraqmentar və qeyri-sistematik xarakter daşıyır. Teatrşünas Seymur Elsevərin[2] də Gülcahan Güləhmədova-Martınova 85 illik yubileyi münasibətilə yazdığı məqalə eynilə bu qəbildəndir və xatirə, nostalji hisslərinə köklənib.

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı tarixinin müxtəlif dönəmlərinə həsr edilmiş dissertasiyalarda[3] isə faktların xronologiyası, faktlar və sənədlər sırası təhlili həmişə üstələyib və bu dissertasiyalarda Gülcahan Güləhmədova-Martınova heç vədə tədqiqatın mərkəzi fiqurlarından biri kimi götürülməyib. S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 80 və 90 illik yubileyləri münasibətilə buraxılmış albomlarda da, təəssüf ki, 30 il bu teatrda

---

[1] Шариф А.А. Спасибо. Гюльджахан-ханум с любовью // Город. – 2010. – № 2. – апрель. – С. 22-28; Исмайлова Н.М. Как хорошо, что она есть // Furor. – 2011. – № 8. – С.11- 18; Заманова А. Весь мир на сцене поместившая, или судьба режиссёра // Каспий. – 2007-2008. – 15, 29 декабря; 12, 26 января; 12 февраля. - №№ 22, 24, 4, 14, 19. – с.14-15.
[2] Bu haqda bax: http://ann.az/ru
[3] Салимова Л.Ш. Роль русского драматического театра им. Самеда Вургуна в культурном наследии Азербайджана: 1970-1990 гг. – дис. … доктора философии по искусствоведению. АГУКИ, Б., 2020, 132 с.

çalışmış G.Ş.Güləhmədovanın yaradıcılığının işıqlandırılmasına çox az yer ayrılmışdır. Müəllif bu məqamı vurğulamağı ona görə vacib hesab edir ki, 30 il bir teatrda aparıcı rejissor kimi fəaliyyət göstərmək Azərbaycan teatr məkanında rekord göstəricilərdən biri sayıla bilər. Hətta Ədiv İskəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi rejissorlar belə bu göstəriciyə görə Güləhmədova-Martınovadan geri qalırlar. Lakin buna rəğmən həmin albomlarda Azərbaycanın ilk qadın teatr rejissoru barəsində heç bir xüsusi məlumat və bilgi gözə dəymir. Hərçənd keçən əsrin 60-cı illərindən üzü bu yana G.Ş.Güləhmədova-Martınovanın hazırladığı tamaşalar haqqında yazılmış resenziyalar o dövrün rus dilli respublika mətbuatında, ilk növbədə, əlbəttə ki, "Bakinski raboçi", "Vışka" və "Baku" qəzetlərində tez-tez özünə yer alıb. Həmin tarixi dönəmdə Azərbaycanda rusdilli peşəkar teatrşünasların sayı çox az olduğundan bu məqalələr əsasən jurnalistlər, filoloqlar və Rus Dram Teatrına yaxın ziyalılar tərəfindən yazılmışdır. Bu məqalələr sırasında Vladimir Boquslavski, Mark Peyzel[1], kimi teatr jurnalistlərinin, Çabir Səfərov, Adilə Səfərova[1], Veta Nadirova[2] kimi teatrşünasların yazılarını fərqləndirmək mümkündür. Bu xüsusda dissertasiyanın mövzusu və tədqiqat predmetinə baxım bucağı ilə əlaqədar onu vurğulamaq mümkündür ki, V.Boquslavski və M.Peyzel bir qayda olaraq G.Ş.Güləhmədova-Martınovanın quruluş verdiyi tamaşalarda sosial-ictimai, siyasi-ideoloji aspekti qabartmış, tamaşaların günün aktual siyasi məsələlərilə səsləşdiyini ön plana çəkmişlər. Adilə Səfərova, Veta Nadirova isə Azərbaycanda teatrın vəziyyətindən, teatr

[1]Богуславский В.М. Равнение на Сагадеева, или почему он отказался от адвоката // Баку. – 1981. – 2 февраля; Богуславский В.М. С любимыми не расставайтесь // Баку. – 1982. – 5 Января; Гликштейн Д.И. Без нравоучений // Бак. рабочий. – 1960. – 13 января; Пейзель М.Л. Пьеса, прочитанная неверно // Баку. 1970. – 21 марта; Пейзель М.Л. Сказка – ложь, да в ней намёк // Баку. – 1970. – 21 октября; Пейзель М.Л. Трагедия и прозрение художника // Баку. – 1976. – 14 апреля; Раева Р.С. Взрыв // Бак.рабочий. – 1960. – 21 декабря; Раева Р.С. Двое на качелях // Бак. рабочий. – 1963. – 9 марта; Раева Р.С. Сирано де Бержерак // Бак. рабочий. – 1966. – 6 мая.

[2] Səfərov C.M. Səadət ardınca // Bakı. – 1958. – 31 mart; Səfərov C.M. Qardaşlığın ifadəsi // Ədəbiyyat və İncəsənət. – 1972. – 5 fevral – s.9-10; Səfərova A.C. Tələbkarlıq azalanda // Ədəbiyyat və İncəsənət. 1966. 11 aprel. – s.6-7; Надирова В.И. Вознёсся выше он главою непокорной // Баку. – 1971. – 15 марта; Надирова В.И. Тощий приз // Баку. – 1972. – 22 марта.

mədəniyyətinin səviyyəsindən, RDT-nin üzləşdiyi problemlər müstəvisindən çıxış edərək tamaşalara qiymət vermişlər. Ancaq bu resenziyalarda, təəssüf ki, birbaşa rejissorun işindən, yaradıcılıq üslubundan az danışılmış, əsas diqqət süjet xəttinə, tamaşanın təsvirinə, müasirliyinə, aktyor oyunun təhlilinə və kommunist ideologiyasına nə qədər uyğun gəlib-gəlməməsinə yönəldilmişdir. Rus Dram Teatrının yaradıcılıq yolu haqqında tərcüməçi, müəyyən dövrdə RDT-nin ədəbi hissə müdiri işləmiş milliyətcə rus olan teatr işçilərin müxtəlif vaxtlarda çapdan çıxmış oçerklərində[1] isə G.Ş.Güləhmədova-Martınovanın hazırladığı tamaşalar barəsində daha tutarlı məlumatlara rast gəlmək mümkündür.

Lakin bütün bunlarla yanaşı tədqiqat üçün toplanılmış materiallar müəllifə onu sübut etdi ki, Gülcahan Güləhmədova-Martınovanın yaradıcılığı barədə, onun rejissor üslubu, rejissurasının özəlliyi barədə yazılmış elmi teatrşünas araşdırmaları sıfır həddindədir və məsələyə bu yöndən yanaşanda hər şeyi sıfır nöqtəsindən başlamaq zərurəti meydana çıxır. Ancaq burada da qorxulu heç nə yoxdur: çünki hər hansı bir sənət hadisəsini və ya bu hadisəyə imza atmış şəxsiyyətin yaradıcılığını öyrənmək, araşdırmaq, dəyərləndirmək üçün dövrü, həmin tarixi dönəmin atmosferini və həmin şəxsiyyətin müasirlərini öyrənib paralellər aparmaqla, oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirməklə, müqayisə etməklə həqiqətə gedib çatmaq mümkün olur.

Maraqlı və yetərincə təsirli fakt budur ki, G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığının ən məhsuldar dövründə bu qadın Rza Təhmasib, Mehdi Məmmədov, Adil İskəndərov, Tofiq Kazımov, Məhərrəm Haşımov, Zəfər Nemətov kimi Azərbaycan teatr sənətinin magistral inkişaf xəttlərini müəyyənləşdirmiş rejissorların əhatəsində olmuş, onların teatr ideyalarından, səhnə sənətilə bağlı fikirlərindən bəhrələnmişdir. Bu o deməkdir ki, Güləhmədova-Martınovanın yaradıcılığına, onun sənət idealına bu rejissorlar yetərincə təsir göstərə bilmişlər. Ona görə də bu tədqiqatda Azərbaycanın tanınmış rejissorlarının həyat və yaradıcılığına həsr [1] Богуславский В.М. Русский Драматический Театр им. Самеда Вургуна. Б: Аз.ТО, 1971. – 174 с.; Гликщтейн Д.И., Раева Р.С. Азербайджанский Государственный Русский Драматический Театр им. С.Вургуна. – Б: Аз.ТО, 1961. – с.63.

olunmuş monoqrafiyalardan[1] qədərincə istifadə olunmuşdur. Bununla yanaşı tədqiqatçı bir məsələyə də toxunmaq istərdi: Azərbaycanın ən tanınmış rejissorları, o cümlədən, Adil İskəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Məhərrəm Haşımov, Ağakişi Kazımov[2] müxtəlif vaxtlarda öz məqalələrində və ya çıxışlarında şəxsən G.Ş.Güləhmədova-Martınova barəsində, həmçinin onun tamaşaları haqqında olduqca müsbət və xoş fikirlər söyləmişlər.

Amma müəllif bununla da kifayətlənməmişdir. Çünki G.Ş.Güləhmədova-Martınova sovet teatr mədəniyyətinin keyfiyyətcə yeni bir mərhələyə adladığı dönəmdə rejissura ilə məşğul olmağa başlamışdır. Odur ki, G.Ş.Güləhmədova-Martınova tədris illərində öz müəllimlərindən K.S.Stanislavski teatrının estetik prinsipləri çərçivəsində işləmək və ona sadiq qalmaq tövsiyyəsini alsa da, 1950-60-cı illərdə formalaşmaqda olan yeni sovet dramaturgiyasının, sovet teatr rejissurasında yeni tendensiyaların təsirindən kənarda qalmamışdır. Elə bu səbəbdən də G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığının araşdırılması prosesinə 1950-60-cı illər sovet rejissurasının aparıcı nümayəndələri haqqında yazılmış tədqiqatlar və ya həmin rejissorların özlərinin yazdığı əsərlər[3] də cəlb olunmuşdur. Müəllif sənədlərlə işləyərkən müşahidə etmişdir ki, G.Güləhmədova

[1] Rəhimli İ.Ə. Kəsişən paralellər. – B : Çaşıoğlu, 2004. – 307 s.; Rəhimli İ.Ə. Azərbaycan Dövlət Rus Dram Teatrı. – B: Təhsil, 2011. – 168 s.; İsrafilov İ.R. Zaman. Rejissor. Poetika. – B: Mars-Print, 1999. – 273 s.; İsrafilov İ.R. Azərbaycan milli rejissor sənətinin poetikası. – B: Elm, 2001. – 254 s.; İsrafilov İ.R. Adil İskəndərovun teatrı. – B: Mars-Print, 2001. – 208 s.; Talıbzadə A.A. Mehdi müəmması və ya sənətdə konseptual hamletizm. B: Elm və Təhsil, 2009, 384 s.

[2] Haşımov M.K. Sənətkarlığımızı daha da artıraq // Az. Gəncləri. – 1959. – 13 oktyabr; Nemətov Z.A. Məhəbbət və vicdanın təntənəsi // Bakı – 1968 – 24 dekabr; Kazımov T.S. Sevimli sənət ocağı // Bakı. – 1972. – 7 fevral; Kazımov A.Ş. Kraliça haqqında danışmaq olmaz // Ədəbiyyat və İncəsənət. –1974. – 14 sentyabr.

[3] Захаров М.А. Контакты на разных уровнях. – М: Искусство, 1987. – 270 с.; Захаров М.А. Суперпрофессия. М: Варгиус, 2000. – 284 с.; Кнебель М.О. Вся жизнь / Ред. Н.А.Крымова. - М.: ВТО, 1967. - 587 с.; Крымова Н.А. Любите ли вы театр: очерки / Вступ. статья О.Н.Ефремова. - М.: Дет. лит., 1987. - 208 с., 14 л. ил.; Кнебель М.О. Вся жизнь / Ред. Н.А.Крымова. - М.: ВТО, 1967. - 587 с.; Крымова Н.А. Любите ли вы театр: очерки / Вступ. статья О.Н.Ефремова. - М.: Дет. лит., 1987. - 208 с.; 14 л. ил. Эфрос А. В. Избр. произведения: В 4 т., 2-е изд. доп. М: Парнас, 1993: Т.1. Репетиция – любовь моя. – 318 с.; Эфрос А. В. Избр. произведения: В 4 т., 2-е изд. доп. М: Парнас, 1993: Т.2. Профессия режиссёр. – 367 с.

Martınova mütəmadi olaraq Moskva teatrlarının görkəmli rejissorlarının müraciət etdiyi pyesləri Azərbaycan Rus Dram Teatrının səhnəsində hazırlamağa çalışmış, Oleq Yefremovun, Georgi Tovstonoqovun, Anatoli Efrosun, Yuri Lyubimovun sənət axtarışlarından, rejissor sənətinə gətirdikləri yeniliklərdən bəhrələnməyə səy göstərmişdir.

Dissertasiyanın mövzusu ilə əlaqədar tədqiqata cəlb olunmuş ədəbi materialın bir hissəsi də birbaşa dramaturgiya sahəsində aparılmış araşdırmaları özündə ehtiva edir. Tədqiqatda Qərb və rus dramaturgiyasının ekzistensional mahiyyətini və nəzəri məsələlərini öyrənməyi hədəfləyən elmi, publisistik materiallardan da istifadə olunmuşdur.

**Tədqiqatın predmeti.** Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatı, Azərbaycan Musiqi Akademiyasının professoru, Azərbaycan Musiqi Akademiyasının nəzdindəki Şövkət Məmmədova adına Opera studiyasının baş rejissoru Gülcahan Güləhmədova-Martınovanın həyat və yaradıcılığının konkret tarixi mərhələnin siyasi-ideoloji, mədəni mühiti və teatr hadisələri kontekstində öyrənilməsi, onun yaradıcılığında xarici və milli dramaturgiya nümunələrinin təcəssüm parametrlərinin aşkarlanması, müəyyənləşməsi və təsnif edilməsi tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işi konkret olaraq **üç məqsəd** hədəfləyir: birinci; yaradıcı fəaliyyətinin ilk 30 ilini Azərbaycan teatrının inkişafı müstəvisində Rus Dram Teatrına, digər 30 ilinisə teatr sənətinin pedaqogikasına həsr etmiş Gülcahan Güləhmədova-Martınovanın milli mədəniyyətdə rolunu və onun hazırladığı tamaşaların Rus Dram Teatrının poetikasına təsir miqyasını obyektivcəsinə müəyyənləşdirməkdir. Tədqiqatın hədəflədiyi ikinci məqsəd xarici və milli dramaturgiya nümunələrinin Güləhmədova-Martınova rejissurasında bədii-estetik təcəssümünün səciyyəvi əlamətlərini bir cədvələ toplamaq və bu cədvəli rejissorun peşəkarlıq kredosu, sənətkar üslubunun cövhəri kimi təqdim etməkdir. Araşdırmanın üçüncü məqsədi Gülcahan Güləhmədova-Martınovanın Azərbaycan milli teatr məktəbinə bir sənət

müəllimi kimi gətirdiyi yeni ənənələrin öz dövrü üçün proqressiv və yetərincə məhsuldar olduğunu görükdürməkdir.

Tədqiqatın **vəzifələri** araşdırmanın, təbii ki, məqsədlərindən doğur:

- Azərbaycanın ilk qadın teatr rejissoru Gülcahan Güləhmədova-Martınovanın sənətə gəlməsinin, Rus Dram Teatrında aparıcı rejissor kimi möhkəmlənib aramsız olaraq 30 il çalışmasının ictimai və psixofizioloji səbəblərini aşkarlamaq;
- Gülcahan Güləhmədova-Martınovanın yaşayıb-yaratdığı dövrün sosial, politoloji, kulturoloji səciyyəsilə XX əsrin 60-cı illərinin teatr poetikası arasındakı üzvi əlaqəni aşkarlamaq, onun teatr ideyalarının zamanın atmosferindən, ruhundan qaynaqlandığını açıb göstərmək;
- G.Ş.Güləhmədova-Martınovanın bir rejissor kimi, bir teatr düşünəri kimi formalaşdıran əsas toplumsal-ideoloji və bədii-estetik amilləri müəyyənləşdirmək;
- G.Ş.Güləhmədova-Martınovanın bir rejissor kimi Qərb dramaturgiyası nümunələrilə işləmək meylinin səbəblərini izah etmək;
- Azərbaycan teatr məktəbinin yetişdirməsi və əslən azərbaycanlı olmasına baxmayaraq Güləhmədova-Martınovanın rus və sovet dramaturgiyasına aşırı sevgisinin köklərini araşdırmaq;
- S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında çalışarkən 30 il müddətinə Gülcahan Şüaulla qızı Güləhmədova-Martınovanın milli dramaturgiya nümunələrinə çox az müraciət etməsinin səbəblərini öyrənmək;
- Xarici və milli dramaturgiya nümunələrinin səhnə variantını yaradarkən G.Ş.Güləhmədova-Martınova üçün işlək bədii-estetik prinsipləri çözmək, şərh etmək;
- G.Ş.Güləhmədova-Martınovanın pyes seçimini şərtləndirən mühüm amilləri təhlilə çəkib bu amilləri onun sənətkar üslubu, rejissor dəst-xətti ilə əlaqələndirmək;

uzun müddət Rus Dram Teatrında uğurlu rejissorluq fəaliyyəti göstərməsinə rəğmən G.Ş.Güləhmədova-Martınovanın bu teatra baş rejisssor təyin edilməsinin səbəbini teatrdaxili münasibətlərdə aramaq;

- milli rejissura sənətinin bədii-estetik parametrləri müstəvisində G.Ş.Güləhmədova-Martınovanın teatr mədəniyyətindəki mövqeyinin mahiyyətini açmaq, aktyorla işləmək, aktyoru duymaq, aktyor yetişdirmək bacarığını onun rejissor istedadının əlaməti kimi yozmaq;
- milli teatr mədəniyyətinin inkişafına G.Ş.Güləhmədova-Martınova tamaşalarının təsir mexanizminin funksionallığını aşkarlayıb göstərmək.

**Tədqiqatın yeniliyi və orijinallığı.** Bu dissertasiya öz mövzusuna, Azərbaycan teatrşünaslığının gündəminə gətirdiyi məqsəd və vəzifələrə, ortaya atdığı kulturoloji problemlərin səciyyəsinə görə tam yeni və orijinaldır. Lakin tədqiqatın yeniliyi və orijinallığı arxasında mürəkkəb və çətin bir araşdırma prosesinin dayandığı şəksizdir. Çünki hələ indiyədək G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığı, iş metodologiyası ciddi elmi araşdırmanın predmeti kimi götürülməyib. Azərbaycan teatrşünaslığında ilk dəfədir ki, Azərbaycan teatrı tarixinin ilk peşəkar qadın rejissorunun yaradıcılığı elmi araşdırma parametrlərində öyrənilir. Bundan əlavə Azərbaycan teatrşünaslığının mövcudluq dönəmi boyunca birinci dəfə olaraq hər hansı bir rejissorun yaradıcılığı Qərb, rus və milli dramaturgiya nümunələrinin kəsişmə koordinatı kimi nəzərdən keçirilir və bu koordinatlar toplumsal məsələlərlə əlaqələndirilir. Tədqiqat əsərində G.Ş.Güləhmədova-Martınovanın sənətdə, mədəniyyətdə tutduğu hücrəyə də, bu rejissorun Rus Dram Teatrındakı 30 illik fəaliyyətinə də tamam yeni baxım bucağından yanaşılır, şəxsiyyətin portretinə onun yaşayıb-yaratdığı mühitin, sosial-siyasi atmosferin davamı və fərdi hadisəsi kimi münasibət bəslənilir.

Azərbaycan teatrşünaslığı tarixində ilk dəfə olaraq məhz bu dissertasiya çərçivəsində G.Ş.Güləhmədova-Martınovanın teatrda aktyorla işləmək, aktyoru duymaq, aktyor yetişdirmək bacarığı onun Rus Dram Teatrı tarixində sənət məktəbi yaratmaq cəhdi kimi yozulur. Bu da öz növbəsində tədqiqatın yenilik və orijinallığının bariz göstəricisi qismində təqdim edilə bilər.

**Tədqiqatın elmi-nəzəri əsasları.** Müəllif dissertasiya üçün sənəd və materialları toplayarkən, birbaşa araşdırma üzərində çalışarkən, əlbəttə ki, hər şey-dən öncə tarixilik prinsipinə üstünlük verib, sənətçinin həyat və yaradıcılığının faktlarına tarixilik yönündən yanaşıb. Lakin bununla belə dissertasiyanın metodoloji özülü müqayisəli təhlillə sosial-kulturoloji analiz müstəvisində qərarlaşır. Tədqiqatçı bu elmi işində sənətşünaslığın təsviri metodundan, dram nəzəriyyəsinin müddəalarından, rejissor sənətinin təməlində dayanan pyesin əməl təhlili metodundan da qədərincə yararlanır, lazım gəldikdə isə semioloji, tipoloji, hermenevtik araşdırma üsullarından bəhrələnməyi də unutmur.

**Elmi işin nəzəri-praktiki əhəmiyyəti.** Araşdırmanın nəzəri-praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın yekun və nəticələrindən Azərbaycan teatr tarixinin tədrisi, habelə teatr tənqidi üzrə seminar dərsləri zamanı istifadə edilə bilər. Bununla yanaşı G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığının tədqiqi Azərbaycan Dövlət Rus Dram Teatrının tarixinin öyrənilməsi və yazılması prosesində dəyərli yardımçı vasitələrdən biri ola bilər. Bu dissertasiya mühazirə və seminarların hazırlanmasında da, aparılmasında da, metodik göstəricilərin yazılmasında da köməkçi funksiyasını yerinə yetirməyə qabildir. Müəllif şübhə etmir ki, bu tədqiqat əsəri Azərbaycanda teatr sənətinin bir çox tarixi və nəzəri aspektlərinin işıqlandırılması baxımından da gələcək dissertantların köməyinə çatmaq iqtidarındadır. Belə ki, bu dissertasiya kontekstində hətta bir sıra faktlar təqdimat yönündən asılı olaraq yeni mənalar kəsb edir. Lakin dissertantın fikrincə, araşdırmanın ən başlıca dəyəri budur ki, dissertasiya Azərbayacan teatrşünaslıq el-minin üfüqlərinin genişlənməsinə və tədqiqat metodologiyalarının zənginləşməsinə təsir göstərəcək. Digər tərəfdən isə bu elmi araşdırma gənc sənətçiləri yeni teatr axtarışlarına həvəsləndirib onlara son dərəcə gərəkli bilgi və informasiyalar ötürmək qüvvəsinə malikdir.

Dissertasiyanın praktiki əhəmiyyəti bir də ondan ibarətdir ki, bu tədqiqat işində ortaya atılan ideyalar, tədqiq edilən fəlsəfi-kulturoloji məsələlər, faktların yeni rakursdan işıqlandırılması teatr mədəniyyətində Rus Dram Teatrının tarixi ilə,

G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığı ilə bağlı geniş diskussiyaların aparılmasından ötrü imkanlar açır.

**Dissertasiyanın aprobasiyası.** Bu tədqiqat işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Teatrşünaslıq" kafedrasının, Azərbaycan EA-nın Memarlıq və İncəsənət İnstitunun "Teatr və kino" şöbəsinin iclaslarında müzakirə olunmuşdur. Tədqiqatın nəticələri tezislər qismində aspirantların və dissertantların, gənc mütəxəssis və alimlərin elmi konfranslarına çıxarılmış və həmin konfransların külliyyatlarında özünə yer tapmışdır. Dissertasiyadan götürülmüş ayrı-ayrı parçalar respublikanın müxtəlif dərgilərində məqalə şəklində dərc etdirilmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiya Mündəricatdan, İxtisarlar siyahısından, Girişdən, hər hissədə iki yarımfəsil olmaqla iki Fəsildən, Nəticədən, istifadə olunmuş Ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Araşdırmanın **Giriş** hissəsində dissertasiya üçün seçilmiş mövzunun aktuallığından söz açılır, onun Azərbaycan humanitar elmi tarixində mənimsənilmə, təhlil olunma və öyrənilmə mənzərəsi panoramlaşdırılır, rus və Azərbaycan dillərində mövcud elmi-nəzəri, monoqrafik, memuaristik və publisistik ədəbiyyat bütöv və tam şəkildə, qədərincə geniş masştabda nəzərdən keçirilir. Girişdə bundan əlavə tədqiqatın məqsəd və vəzifələri aydınlaşdırılır, tədqiqatın zaman hüdudları, tədqiqatın predmeti barədə fikir yürüdülür, mövzuya metodoloji yanaşma yönü konkret olaraq müəyyənləşdirilir, işin elmi yeniliyi, orijinallığı, praktiki əhəmiyyəti araşdırılır, dissertasiyanın aprobasiyasından və strukturundan qısa və sırf informativ bir qayədə danışılır.

Tədqiqatın **"G.Güləhmədova-Martınova yaradıcılığının ictimai-sosial, siyasi-ideoloji qayəsi"** adlandırılmış **I fəsli** iki yarımfəsildən ibarətdir. Birinci fəslin preambulasında müəllif hər iki yarımfəsildə ortaya atılmış məsələlərin tədqiq dairəsini cızır, "sənətkar və cəmiyyət" mövzusunun permanent aktuallığını dissertasiyanın çıxış nöqtəsi kimi götürür. Hər bir yaradıcılıq, hər hansı bir tamaşa,

film və ya ədəbiyyat əsəri, hətta balaca bir şeir belə öz dövrünün, öz müasirlərinin, cəmiyyətin, mühitin, ictimai-sosial şəraitin qarşısına ayna tutur.

Azərbaycan Respublikasının xalq artisti, Prezident təqaüdçüsü G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığı tarixilik baxımından çox böyük bir zaman çərçivəsinə sığışır. Bu qadın sovet ideologiyasında dominant tendensiyaların birbaşa təsiri altında tərbiyə almış, formalaşmış, bu ideologiyanın həqiqətini və yalanını, pozitivini və neqativini, acısını və şirinini ömrünün müxtəlif çağlarında təcrübədən keçirmiş və bu təcrübəni öz yaradıcılığında, öz tamaşalarında şifrələmiş, Rus Dram Teatrında uzun illər boyu çalışmış, siyasət dəyişkənliyinin incəsənətə, ədəbiyyata, insanların münasibətlərinə necə təsir etdiyini görmüş, azərbaycanlı olmasına baxmayaraq Qərb, və xüsusilə də, rus mədəniyyətini bütün varlığına, sinirlərinə, duyğularına hopdurmuş birisidir.

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının milli mədəniyyət şəbəkəsində mövcudluğunun özü də son dərəcə maraqlı, siyasi-ideoloji və tarixi bir hadisə kimi dəyərləndirilə bilər. Bu teatrın varlığının şərti sovet rejimi olub, SSRİ kimi nəhəng bir sosialist ölkəsi olub, onun ideologiyasını formalaşdıran bolşeviklər partiyası (Sov.İKP) olub. Heç də təsadüfi deyil ki, Rus Dram Teatrının soykökündə məhz proletariatın, bolşeviklərin ideologiyasına, ictimai məfkurəsinə, siyasi pafosuna xidmət edən "Tənqid-Təbliğ Teatrı" aktiv şəkildə iştirak edir. Ancaq bununla belə Rus Dram Teatrının heç bir zaman milli azlıqların teatrı kimi, sırf rusların, rus xalqının teatrı kimi Azərbaycan mədəniyyətində təsnif edilməyib və rus dilli insanların teatrı, azərbaycanlıların teatrı, rus dilli ziyalıların teatrı kimi qavranılıb.

Rus Dram Teatrının öz inkişaf yolu boyunca keçmiş SSRİ-nin heç bir aparıcı teatrının mahiyyət və forma oxşarı olmayıb, Moskva teatrlarından bəhrələnməyə meyl etsə də, bütün zamanlarda özəl xüsusiyyətlərini qoruyub saxlayıb və həmişə "Azərbaycan Rus Dram Teatrı" ifadəsinin bildirdiyi mənalara sadiq qalıb.

Bu mənada G.Ş.Güləhmədova-Martınova yaradıcı bir şəxsiyyət kimi RDT-nin 90 illik tarixinin çox mühüm bir parçasıdır. Hətta belə də demək mümkündür ki, bu rejissorun RDT-də fəaliyyət müddəti RDT-nin ümumi tarixinin üçdə birini

özündə ehtiva edir. Bundan əlavə G.Ş.Güləhmədova-Martınovanın 1952-1982-ci illərdə xarici və milli dramaturgiya nümunələri əsasında hazırladığı tamaşalar Azərbaycanda avropa teatrın ənənələrinə, keçmiş SSRİ məkanında dəstəklənən teatr dəyərlərinə, sovet teatr avanqardına, habelə, kommunistlərin qurduğu dünyaya və yaratdığı mədəniyyətə, ictimai-siyasi mühitə, ideologiyaya, bu ideologiyanın həm təmtəraqlı, şadyana parad formasına, həm də buxovlarla, repressiyalarla dolu məxfi zirzəmi formasına bədii bir refleksiyadır.

Tədqiqatın preambulasında bu məsələlər ötəri və ümumi şəkildə vurğulandıqdan sonra müəllif hər iki yarımfəsildə onların müfəssəl təhlilinə başlayır. Lakin danılmaz həqiqət budur ki, hər bir sənətkarın yaradıcılığı onun şəxsi həyatının təsiri, aşkar və gizlin impulsları ilə formalaşır. Odur ki, dissertasiyanın I fəslinin ilk yarımfəsli **“G.Güləhmədova-Martınovanın sənətdə keçən ömrünün tarixi-faktoloji dönəmləri”** adlanır. Bu yarımfəsildə G.Ş.Güləhmədova-Martınovanın həyat faktları şəxsiyyət və cəmiyyət, fərdi və ictimai, vətəndaş və ideologiya, azadlıq və yasaq, yaşantı və qanun prizmasından nəzərdən keçirilir.

1945-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun “Rejissor və aktyor sənəti” fakultəsinin “Dram rejissoru” şöbəsinə qəbul edilmiş Gülcahan Şüaulla qızını evdə qarşılayan əmisi AMEA-nın Coğrafiya İnstitutunun direktoru Ağa Qasım Gül demişdi ki, sənin bu fakultədən o fakultəyə “qaçmağının” axırı yaxşı qurtarmayacaq və sonra da əlavə etmişdi: “Rejissorluq kişi sənətidir. Mən hələ indiyədək bir dənə də olsun qadın rejissor tanımıram”. Onda gənc Gülcahan belə söyləmişdi: “Elə isə mən birinci olacagam”.[1] Gülcahan xanım sözünün üstündə dayandı və Azərbaycanın teatr məkanında çalışan ilk peşəkar qadın rejissoru oldu.

Gülcahan Şüaulla Qızı Güləhmədova 1925-ci il iyun ayının 23-də Bakı şəhərində keçmiş Kolodeznaya küçəsində (M.Rostropoviçin ev muzeyinin yerləşdiyi məhəllə) əslən Şamaxı zadəganlarına, – yəqin ki xan-bəy nəslinə, –

[1] Шариф А.А. Спасибо. Гюльджахан-ханум с любовью // Город. – 2010. – № 2. – апрель. – С. 22.

mənsub həkim ailəsində dünyaya göz açıb və elə uşaqlıq çağlarından da zəmanənin siyasi-ideoloji oyunlarının ağrı və acılarını dadıb: hətta belə də demək mümkündür ki, onların girovu olub. 1929-cu ildə Gülcahan dörd yaşında olarkən onun atasını qəfildən, heç bir izahat vermədən həbs eləyiblər və gecə ikən evdən aparıblar. 1933-cü ildə anası balaca Gülcahanı Bakıdakı rus dilli 132 saylı məktəbə yazdırıb. Sonra balaca Gülcahanın atalığını da sürgün eləyiblər. 1941-ci ildən isə Gülcahan Şüaulla qızının həyatına II Dünya müharibəsi özünün bütün məşəqqətləri, aclığı, soyuğu, qaranlığlı, kədərilə daxil olur. Lakin buna baxmayaraq Gülcahan Şüaulla qızı Güləhmədova məktəbi bitirər-bitirməz 1943-cü ildə 18 yaşında ikən Sergey Petroviç Martınov adlı sovet donanmasında xidmət edən bir rus (əslən kazak) zabitilə ailə qurur və onun soyadını da öz qızlıq familiyasına əlavə edir. 1944-cü ildə isə artıq Gülcahan xanımın ailəsində dünyaya gəlmiş Qalina adlı bir körpə böyüdürdü. Beləliklə, 1945-ci ildə artıq bir uşaq anası, ailəli bir qadın kimi G.Ş.Güləhmədova-Martınova 20 yaşında ikən Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq şöbəsinə qəbul olunur və buranı 1952-ci ildə bitirir. 1951-ci ildən Gülcahan xanım bir rejissor kimi öz təcrübə müddətini də RDT-də keçir, yəni institut tərəfindən bir təcrübəçi rejissor statusunda başqa teatra yox, məhz RDT-yə göndərilir. 1952-ci ildə isə, əlbəttə ki, diplom aldıqdan sonra, G.Ş.Güləhmədova-Martınova rəsmi əmrlə RDT-nin rejissoru vəzifəsinə qəbul olunur.

Çox mühüm (və hətta bəlkə də siyasi-ideoloji) məsələ ondan ibarətdir ki, 1950-70-ci illər intervalında RDT-də işləyən azərbaycanlıların sayı çox az idi: aktyorlar truppasında isə ruslar və yəhudilər əsas aparıcı qüvvəni təşkil edirdilər. Onların arasında gürcülərə, ermənilərə, osetinlərə, ləzgilərə, çeçenlərə də rast gəlmək olardı. RDT-nin aktyor truppasında o vaxt üçün səhnədə rusca təmiz danışıb rol ifa eləyə biləcək azərbaycanlı aktyorların adını tarix xatırlamır. Düzdür, keçən əsrin 50-ci illərindən etibarən azərbaycanlı rejissorlar da RDT-nin yaradıcılıq taleyinə "qarışmağa" başlayırlar və hətta bu teatrda lider mövqelərə yiyələnirlər. 1956-60-cı illər ərzində Azərbaycanın xalq artisti, rejissor Məhərrəm Haşımov hətta RDT-nin baş rejissoru olur və qısa fasilədən sonra təkrarən 1966-cı

ildə bu vəzifəyə qayıdır. Müəllif həm bu tarixi, həm də Gülcahan Güləhmədova-Martınovanın RDT-yə rejissor vəzifəsinə götürülməsini RDT-nin tarixində dönüş nöqtəsi kimi qiymətləndirir. Belə ki, məhz bu nöqtədən RDT daha çox Azərbaycan teatrı, azərbaycanlıların teatrı olmağa başlayır.

1951-ci ildən yalnız rejissor assisenti kimi fəaliyyət göstərən Gülcahan. xanımın rejissor karyerasında isə əsl dönüş 1956-cı ildə yaşanır: RDT-yə Azərbaycanın xalq artisti, Stalin mükafatı laureatı M.Haşımovun təkrar gəlişindən, A.İskədorovun bu teatrda gənc rejissor Gülcahanla birgə “Vaqif” tamaşasını hazırlamasından sonra G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığında bir aktivlik müşahidə olunur və onun teatrdakı mövqeləri möhkəmlənir. Doğrudan da, çox çəkmir ki, M.Haşımovun rəhbərliyi altında, artıq keçən əsrin altmışıncı illərində G.Ş.Güləhmədova-Martınova RDT-də liderlik mövqelərinə yiyələnir, RDT-nin nüfuzlu və aparıcı rejissorları sırasında qərarlaşır. XX əsrin 70-ci illərində o, öz sənətinin zirvəsinə yüksələcək və elə bu dövrdə RDT-nin kollektivi G.Ş.Güləhmədova-Martınovanı teatrın içində “Ledi Gü” adlandırmağa başlayacaq, onu teatrın ledisi kimi qavrayacaq. 70-80-ci illər ərzində bu rejissor “Həmişə təmizlikdə”, “Komandorun addımları”, “Valentin və Valentina”, “Kraliça haqqında bir kəlmə də!”, “Burada üfüqlər sakitlikdir”, “Buenos-Ayresdə müsahibə”, “Əldən salınmış at”, “Təsəvvür oyunu”, “Hamı ilə təklikdə” kimi tamaşaları ilə yalnız Azərbaycanda deyil, həmçinin keçmiş SSRİ məkanında da tanınmışdı. Onun 1971-ci ildə quruluş verdiyi “Komandorun addımları” (V.Korostılyov) tamaşası 1972-ci idə Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülür. Teatr mədəniyyətindəki xidmətlərinə görə 1981-ci ildə bu qadın Azərbaycan SSR-in xalq artisti kimi rerspublikanın ən yüksək fəxri adı ilə şərəfləndirilir.

Lakin bu dəyərləndirməyə baxmayaraq G.Ş.Güləhmədova-Martınova müəyyən teatrdaxili intriqalar və onun uzun müddət RDT-yə baş rejissor təyin edilməməsi ucbatından öz ərizəsini yazıb teatrdan uzaqlaşır, bütün xahiş və minnətlərə rəğmən bir daha geri dönmür.

G.Ş.Güləhmədova-Martınova RDT-dən getdikdən sonra Ü.Hacıbəyli adına ADK-nın nəzdində Opera studiyasında baş rejissor kimi çalışır və opera

müğənnilərinin gələcək inkişafını təmin etmək məqsədilə tamaşalar, əsasən, klassik repertuardan opera tamaşaları hazırlayır və hətta uşaqları da unutmur: Redyard Kiplinqin eyniadlı əsəri əsasında BMA-nın Məktəb-studiyasında qurduğu "Mauqli" tamaşası uzun müddət maraqla oynanılır və baxılır. 1985-ci ildə G.Ş.Güləhmədova-Martınova ADK-nın dosenti, 1990-cı ildə isə professoru vəzifəsinə təyin olunur. G.Ş.Güləhmədova-Martınova 1997-ci ildən Prezident təqaüdçüsüdür və yeri gəldikcə öz xatirələrini bu və ya digər dərgilərdə, toplularda[1] dərc elətdirir.

Tədqiqatın I fəslinin "**G.Güləhmədova-Martınovanın rejissor üslubuna çağdaş sovet dramaturgiyasının təsirini şərtləndirmiş amillər**" adlanan ikinci yarımfəsli G.Ş.Güləhmədova-Martınova yaradıcılığında müasir sovet pyesləri əsasında hazırlanmış tamaşaları panoramlaşdırır və bunları bir sıra şəklinə gətirərək təkrarlanan xüsusiyyətləri sənətkar üslubunun əlaməti kimi təsnif eləyir. Bundan əlavə I fəslin ikinci yarımfəsli G.Ş.Güləhmədova-Martınova yaradıcılığının inkişaf dinamikasını səciyyələndirir, sovet ideologiyasının, siyasi baxışların onun RDT-də hazırladığı tamaşaların poetikasına təsirinin xarakterini müəyyənləşdirir.

Müəllif G.Ş.Güləhmədova-Martınovanın yaradıcılığını araşdırarkən çox maraqlı bir tendensiya ilə qarşılaşdı: 1958-ci ildən, yəni RDT-də sərbəst şəkildə quruluşçu rejissor fəaliyyətinə başladığı andan ta 1982-ci ildə təhvil verdiyi sonuncu tamaşayadək onun bütün quruluşları bu və ya digər şəkildə dövlətin siyasəti, ideologiyası ilə bağlı olub, bu siyasətə, bu ideologiyaya bir refleksiya kimi düşünülüb. İstər Qərb, istər rus, istərsə də milli dramaturgiya nümunələri ilə işləyərkən G.Güləhmədova-Martınova birinci növbədə öz tamaşasının aktual səslənməsinə çalışıb. Müasirliyi, yəqin ki onun müəllimi Mehdi Məmmədovun öyrətdiyi kimi, G.Güləhmədova-Martınova hər şeydən və bütün estetik parametrlərdən üstün sayıb, mühüm bilib. Bəlkə də elə buna görədir ki, zamanında onun RDT-nin səhnəsində qurduğu tamaşalar həmişə aktuallığı, öz dövrünə adekvat olması ilə seçilib. Mümkün ki, G.Güləhmədova-Martınovanın hazırladığı çoxsaylı tamaşalar sırasında uğurlu və uğursuz tamaşalar olub, lakin onların heç

biri rüzgarın gərdişindən, siyasi-ideoloji atmosferdən, cəmiyyətdə yaşayan insanların ovqatından kənarda qalmayıb və dövrü mətbuatda da elə bu cür reaksiya oyadıb.

1960-cı ildən G.Ş.Güləhmədova-Martınovanın sənətdə özünütanıma, özünü dərk etmə prosesi sürətlənir və güclənir: onun quruluşlarında bir yetkinlik, cəsarət, inam, özünə arxayınlıq əlamətləri görünməyə başlayır. G.Ş.Güləhmədova-Martınova 1960-70-ci illər zaman kəsimində son dərəcə produktiv və intensiv çalışır və hər teatr mövsümündə bir norma kimi üç və ya dörd tamaşa hazırlayır. 60-cı illərin ortalarınadək Gülcahan xanım özünü yaradıcı bir şəxsiyyət kimi teatrda təsdiqləyir, kollektivin inam və rəğbərini qazanır. Təbii ki, bu prosesdə RDT-nin baş rejissoru olmuş Məhərrəm Haşımovun rolunu danmaq düzgün olmazdı: o, bir baş rejissor kimi bir dəfə olsun belə G.Güləhmədova-Martınovanın seçdiyi pyeslərə "yox" demir, onun sənətçi istəklərinin qarşısına sədd çəkmir. 60-70-ci illərdə G.Güləhmədova-Martınova daha çox sovet müəllifləri ilə işləyir, onların pyeslərini tamaşaya hazırlayır: bunların sırasında "Şairin ölümü" (V.Solovyov), "Aylı sonata" (A.Tur), "Kolleqalar" (V.Aksyonov), "Qadın monastrı" (V.Dıxoviçnı, M.Slobodski), "Vicdan" (D.Pavlova), "Kəndçi qızı" (M.İbrahimov), "Ağır ittiham" (L.Şeynin), "Məhəbbət haqqında 104 səhifə" (E.Radzinski), "Tokioda press-attaşe" (M.Maklyarski, K.Rappoport), "Sən həmişə mənimləsən" (İ.Əfəndiyev), "Varşava melodiyası" (L.Zorin), "Başqa qadın" (S.Alyoşin) kimi əsərlərin adlarını çəkmək mümkündür. Təbii ki, bu tamaşaların hamısını birmənalı şəkildə uğurlu adlandırmaq olmaz. Yaradıcılığın yazılmamış qanunu belədir: uğur və uğursuzluq yaradıcılıq boyu əl-ələ verib gəzirlər.

Mütəmadi olaraq müasir sovet pyes yazarlarının əsərlərilə işləmək rejissorun üslubuna da öz təsirini göstərirdi. Hərçənd əgər mövzuya SSRİ xalqlarının teatr tarixi masştabında yanaşılsa, həməncə analogiyalara, müqayisələrə ehtiyac yaranacaq və bu "üslub" deyilən bir şey birbaşa dəblə əlaqələnəcək. Belə ki,

---

[1] Гюльахмедова-Мартынова Г.Ш. Друзей моих прекрасные черты появятся и растворятся снова / Город моей молодости: сб. рассказов. – Баку, 2012. – С.8-18.

bayaqdan sadalanan şərtləri təkcə G.Ş.Güləhmədova-Martınovaya deyil, sovet teatrının əksər rejissorlarına aid etmək lazım gələcək. Çünki sovet dramaturgiyasına qarşı sevgi və qayğı dövrün, zamanın tələbi idi və haradasa Moskva teatrlarında XX əsrin 50-ci illərinin ortalarından formalaşmağa başlayan teatr dəbi ilə səsləşirdi. Sübut etməyə heç bir ehtiyac yoxdur ki, məhz G.Ş.Güləhmədova-Martınova RDT-yə müasir teatrın nəfəsini gətirdi, RDT-nin qapılarını müasirliyin, müasir sovet və Qərb dramaturqlarının üzünə açdı. Onun RDT-də bu missiyası haradasa Tofiq Kazımovun MDT-də gerçəkləşdirməyə çalışdığı missiya ilə üst-üstə düşürdü.

G.Ş.Güləhmədova-Martınova gerçəkçi teatrın bədii-estetik parametrləri hüdudlarında işləyən bir sənətçi kimi özünü mədəniyyət aləmində tanıtdırıb. O, yaradıcılığı boyu K.S.Stanislavskinin teatr məktəbinə, öz müəllimlərinin dediklərinə sadiq qalaraq çalışıb və öz tamaşalarını həmişə yaşantı məktəbinin estetik prinsipləri üzərində qurub, hər bir jestə, hər bir mizana konkret məna, fikir daşıyıcısı kimi yanaşıb. Gündəlik həyatda bir qədər sərt və ötkəm, hökmlü və aqressiv olmasına baxmayaraq G.Ş.Güləhmədova-Martınovanın tamaşaları həmişə öz yumşaqlığı, romantikliyi ilə seçilib. Onun tamaşaları gerçəkliyin həqiqətləri ilə kövrək yaşantıların, arzuların, reallıq ilə ideallarn konfliktini sərgiləyən hekayətlər (bəzən şən, bəzən kədərli) kimi seyrçilərin qəlbinə yol tapıb. G.Ş.Güləhmədova-Martınovanın rejissor üslubu üçün səciyyəvi cəhətlərdən biri də onun aktyorda tam şəkildə "əriməsi" və öz iddialarını, öz şəxsi "mən"ini aktyorlara sırımamasıdır. G.Ş.Güləhmədova-Martınova öz tamaşalarında hər bir zaman aktyorların dostu, tərəfmüqabili olub, onların bir sənətkar kimi parlaması üçün əlindən gələni əsirgəməyib və bir qayda kimi öz tamaşalarında dramaturq fikrinin, dramaturq sözünün ardınca gedib, onların maksimal realizəsinə çalışıb.

Dissertasiya işinin **"Dünya dramaturgiyası nümunələri G.Güləhmədova-Martınovanın rejissor yozumunda"** adlanan **II fəslinin** preambulasında sənətçinin xarici ölkə yazarlarının əsərlərinə konkret zaman və məkan kontekstində yanaşma yönündən, onlara verdiyi şərhdən, sovet gerçəkliyinə münasibətindən danışılır. Əgər G. Güləhmədova-Martınovanın 1952-1982-ci illər arasındakı 30

illik rejissorluq fəaliyyəti 100%-lik qüvvə həcmində hesablanarsa, onda belə bir statistika ortaya çıxacaq. G.Ş.Güləhmədova-Martınova bu 100%-in 60%-ni müasir sovet pyeslərinin, 30%-ni çağdaş dünya dramaturgiyası nümunələrinin və nəhayət, yalnız 10%-ni klassik əsərlərin RDT-nin səhnəsində təcəssümünə sərf edib. Əlbəttə ki, burada disbalans aşkardır: lakin bu disbalans G.Ş.Güləhmədova-Martınovanın sənətçi dünyasının harmoniyasını pozmur. Çünki bu rejissor hər zaman müasir qalıb öz müasirləri ilə danışmaq imkanını hər şeydən üstün bilir. Hətta klassika G.Ş.Güləhmədova-Martınova üçün o zaman maraqlıdır ki, bu klassika müasirlərə nəyisə anlatmaq, hansısa bir sosial-ictimai sirri açıb faş eləmək, eyhamlaşdırmaq şansı verir.

Əlbəttə ki, mövzu, ideya, fəlsəfi fikir baxımından daha şəffaf, daha aydın, daha tanış sovet dramaturgiyasını RDT-nin səhnəsinə gətirmək, onu istədiyin şəkildə qurmaq peşəkar baxımdan asan, siyasi baxımdan təhlükəsiz, karyera baxımından isə sərfəli idi. Müasir Qərb və ya dünya dramaturgiyasının isə istənilən nümunəsinə müraciət etmək yasaqlanırdı.

Əcnəbi ölkə dramaturqlarının pyeslərinə müraciət siyasi motivlərdən əlavə həm də G.Ş.Güləhmədova-Martınova üçün öz aktyorlarını tamam fərqli materialda, fərqli düşüncə tərzinə uyğun, fərqli vəziyyətlərdə işlətmək cəhdi idi. Belə ki, burada təkcə bir insan, bir vətəndaş marağı deyil, həm də professional maraq özünü göstərirdi. G.Ş.Güləhmədova-Martınovanı xarici dramaturqların pyeslərində konfliktin ekzistensional təbiəti də maqnit kimi özünə çəkirdi. Bu maqnetizmin digər səbəbi isə həmin pyeslərin, əsasən, hər hansı bir ideoloji təbliğatdan uzaq olması ilə izah edilirdi. Qərbin və ABŞ dramaturqlarının pyesləri həm də G.Ş.Güləhmədova-Martınovanın rejissor axtarışları üçün üfüqlər açırdı: hər şeydən öncə ona görə ki, bu əsərlərdə teatral oyunlar dərin psixoloji qatlarda qurulurdu., dialoqlar öz fəlsəfi xarakteri, qəhrəmanlar özlərini azad şəkildə ifadə etmək xüsusiyyətləri ilə seçilirdilər. Xarici ölkə dramaturqlarının pyeslərində personajlar öz həqiqətlərini bütünlükdə danışırdılar, öz ehtiraslarından, öz qüsurlarından, naqisliklərindən və, əlbəttə ki, siyasi səhv buraxmaqdan qorxmurdular. Busa keçən əsrin 60-80-ci illər dönəmində bütün sovet rejissorlarına

son dərəcə ilginc görünürdü: onlar elə təssəvvür edirdilər ki, bu pyesləri tamaşaya hazırlayarkən azadlığa qovuşurlar, əsl demokratiyanı dadırlar. G.Ş.Güləhmədova-Martınovanın adı da bu siyahıda bəlkə də birincilər sırasındadır.

Tədqiqatın II fəslinin **birinci** yarımfəslinin adı **"Çağdaş dünya dramaturgiyası kontekstində G.Güləhmədova-Martınovanın rejissor axtarışları"** kimi müəyyən edilmişdir.G.Güləhmədova-Martınova özünün bütün yaradıcılığı boyunca, və xüsusilə də RDT-ni tərk edən məqamacan müasir Qərb dramaturgiyasında nə baş verdiyini, onun hansı səmtə istiqamətləndiyini izləyib, dünyanın ən maraqlı pyes yazarlarının əsərlərinə müraciət edib və bu zaman populyar adlara, teatr dəblərinə sarı üz tutmayıb, öz mənəvi-əxlaqi kodekslərinə, üslubuna, zövqünə, ziyalı təbiətinə söykənərək, estetik baxışlarına güvənərək bu və ya digər xarici pyesi teatrın səhnəsində canlandırmaqdan ötrü yararlı bilib. Əgər dövrün teatr dəblərinin sırasına ötəri nəzər salsaq, görəcəyik ki, XX əsrin 60-80-ci illəri intervalında dünyanın bir çox teatrlarında avanqardçı sənətçilər fransız Alfred Jarrinin, isveç Avqust Strindberqin, isveçrəli Maks Frişin və absurd dramaturgiyası təmsilçilərinin, əsas etibarı ilə irland Semuel Bekketin, rumın Ejen İoneskonun, fransız Artur Adamovun, ingilis Edvard Olbinin əsərlərinə müraciət edirdilər. Dünya teatrının tarixi absurd dramaturgiyasını 60-cı illər Avropasının ən ilginc teatr dəbi kimi təsnif eləyir. Bu intellektual, ironik, sarkazmla dolu pyeslər Gülcahan xanımı ilgiləndirmirdi, onunla danışmırdı, Azərbaycanın ilk qadın teatr rejissoruna qədərincə soyuq, emosiyasız görünürdü. Odur ki, G.Ş.Güləhmədova-Martınova bir ayrı tip pyeslərə üstünlük verirdi: o, öz seçimini daha çox italyansayağı komediyalr ("Gecən xeyrə qalsın, Patrisiya", "Yalançı tələb olunur", " Sensasiya baş tutmadı", "Mənim peşəm cəmiyyətdə senyor olmaqdır"), pritçavari süjetləri olan lirik-romantik ovqatlı, ekzistensional konfliktli pyeslər ("Tülkü və üzüm", "Yelləncəkdə iki nəfər", "Orfey cəhənnəmə enir", "Sabahkı günə yol aç", "Əldən salınmış at") və ya günün aktual siyasi problemlərilə birbaşa səsləşən əsərlər ("Vecsiz mükafat", "Buenos-Ayresdə müsahibə") üzərində saxlayırdı. Xarici dramaturgiya nümunələrini tamaşaya qoymaq G.Ş.Güləhmədova-Martınova üçün üstüörtülü şəkildə sovet gerçəkliyinin, sovet cəmiyyətinin naqisliklərindən

danışmaq və "mən ki burjua cəmiyyətini tənqid edirəm" bəhanəsini gətirməklə özünü qorumaq, müdafiə etmək şansı idi. Bundan başqa bu pyeslər onun rejissor axtarışları üçün geniş üfüqlər açırdı, personajların psixolojisini daha dərin qatlarda təhlil etmək, insan münasibətlərinin ən gizlin, ən intim guşələrinə enmək, aktyorları yeni və fərqli bədii materialda işlətmək imkanı verirdi. XX əsrin 60-cı illəri də tarix içində yeni həyat və mədəniyyət xronologiyasını başlayırdı və teatrdan dəyişməyi, yeniləşməyi tələb edirdi. RDT-nin rejissoru G.Ş.Güləhmədova-Martınova da bu yeniliklərə münasibətdə olduqca həssas idi və müasir dramaturgiyanın repertuardakı dominant mövqeyi onun teatr estetikasını müəyyənləşdirən əsas amillərdən biri sayılırdı. G.Ş.Güləhmədova-Martınova dövrün tələblərinə uyğun o zaman çalışırdı ki, öz tamaşalarını daha lakonik, daha effektli, vaxt etibarı ilə daha qısa eləsin. Təsadüfi deyil ki, bu da onun rejissor axtarışlarının hədəflədiyi məqamlardan biri kimi qavranılır.

Dissertasiyanın II fəslinin **ikinci** yarımfəsli "**Klassik pyeslərə münasibətdə G.Güləhmədova-Martınovanın rejissor mövqeyi**" adlanır ki, bu da xüsusi bir təhlil mövzusudur. Çünki klassik pyeslər G.Ş.Güləhmədova-Martınova yaradıcılığının mərkəzini zəbt etmir, əksinə bu yaradıcılığın periferiyası ilə gəzişir. G.Ş.Güləhmədova-Martınovanın bütün yaradıcılığı müasirlikdən yoğrulub, o, RDT-də fəaliyyət göstərdiyi illər boyunca hər zaman öz müasirlərinə xidmət eləyib, müasirlərinin anladığı və qavradığı bir dildə onlarla danışmağa çalışıb. Amma teatr sənətinin qəribə bir yazılmamış, bəyan edilməmiş qanunu həmişə teatr mühitində kabus kimi dolaşır. Hər bir rejissor mütləq şəkildə klassik pyeslərlə uğur qazanmağı əsl uğur sayır, aktyorlarsa klassik rollarda çıxış etməyi onların yüksək səviyyəli sənətkar kimi, ustad kimi təsdiqlənməsinin bir nömrəli əlaməti bilir. Azərbaycanın ilk qadın teatr rejissorunun klassik pyeslərə münasibətdə öz mövqeyi olub. O, təkcə peşəkarlığı əlində bayraq eləyərək klassik pyeslərə yanaşmayıb. G.Ş.Güləhmədova-Martınovanın klassik əsərlərin müasir səslənməsi daha mühüm əhəmiyyət kəsb edib. Onun RDT-də hazırladığı tamaşaların siyahısında (30 illik bir fəaliyyət müddətində bu siyahının nə qədər mükəmməl və böyük olduğu nəzərə alınmalıdır) çox qəribədir ki, Esxil, Sofokl, Evripid, Aristofan, J.B.Molyer, Lope

de Veqa, P.Kalderon, K.Haldoni, K.Qotsi, A.N.Ostrovski, H.Hauptman, H.İbsen, A.P.Çexov, M.Qorki və sair bu kimi dramaturqların əsərlərindən heç nə yoxdur. Ancaq bundan daha aktual və daha mühüm bir məsələ də mövcuddur: G.Ş.Güləhmədova-Martınova öz karyerası boyunca bir dəfə də olsun Azərbaycan klassik dramaturgiyasına mütraciət etməyib: nə Əbdürrəhimbəy Haqverdiyevin, nə Cəlil Məmmədquluzadənin, nə Cəfər Cabbarlının, nə Hüseyn Cavidin pyesləri onu maraqlandırmayıb. Dissertasiyanın II fəslinin ikinci yarımfəslində tədqiqatçı G.Güləhmədova-Martınovanın RDT-də klassik əsərlər əsasında quruluş verdiyi "Sirano de Berjerk"(E.Rostan), "Mariya Styuart" (F.Şiller), "Otello" (U.Şekspir), "Mariya Tüdor" (V.Hüqo) "Təlimçinin ram edilməsi" (C.Fletçer) tamaşalarını təhlilə çəkməklə yanaşa bu sualları da cavablandırmağa çalışır.

Tədqiqat işinin **Nəticəsində** dissertasiyanın işlənilmə prosesində əldə edilmiş yekun qənaətlər verilir. Tədqiqatçı mövzunun öyrənilməsindən və təhlilindən sonra gəldiyi nəticələri iki istiqamətdə cəmləşdirir. 10 bölmədən ibarət birinci istiqamət G.Ş.Güləhmədova-Martınovanın tamaşalarının bədii-estetik mahiyyətinin və qayəsinin, onun dünyagörüşünün, rejissor üslubunun xüsusiyyətlərini özündə ehtiva edir. 9 bölmədən ibarət ikinci istiqamət isə G.Ş.Güləhmədova-Martınovanın Azərbaycanın mədəniyyət siyasətində, teatr mədəniyyətində yeri, missiyası və mədəniyyətlərarası dialoqda xidmətləri ilə bağlıdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri və tezisləri çap olunmuşdur:**

1."Гюлъджахан Гюлъахмедова – Мартынова и процес Азербайджанизации в Русском Драматическом Театре" Международный научный журнал Казахстан "Поиск" № 4 2013 с 5-8

2. Материалы III Международной научной конференции (Налъчик) "Язык, культура, етикет в современном политическом пространстве" 2013, с 68-72

3."XX əsrin əvvəllərində Azərbaycan teatrının inkişaf dinamikası" "Elmi əsərlər" məcmuəsi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Bakı, 2012, № 14 s 47-51

4.Gülcahan Güləhmədova –Martınova yaradıcılığının ictimai-sosial, siyası-ideoloji qayəsi və fəlsəfi qaynaqları "Elmi əsərlər" məcmüəsi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Bakı,2013, № 16 s 117-122

5. Gülcahan Güləhmədova –Martınovanın dünya və sənət qavrayışına represiya və müharibə faktorunun təsiri "Mədəniyyət dünyası" Elmi nəzəri məcmüəsi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Bakı,2013, № 25 s 160-165

6. Klassik pyeslərə münasibətdə Gülcahan Güləhmədova –Martınovanın rejissor mövqeyi "Mədəniyyət dünyası" Elmi nəzəri məcmüəsi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Bakı,2013, № 26 s 80-84

7. Gülcahan Güləhmədova –Martınovanın tamaşalrının məzmun mündərəcəsi və bədii estetik qayəsinin paradiqması. Mədəniyyət: Problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların VII Beynəlxalq elmi konfransının materialları. Bakı,2013, may.s 65-66

8. "Azərbaycan teatr mədəniyyətində H.Əliyev fenomeni" (Rus Dram Teatrının "Komandorun addımları" tamaşanın təhlili müstəvisində) "Azərbaycan mədəniyyəti və incəsənəti H.Əliyevin Azərbaycanlıq ideyologiyasının ideya – fəlsəfi əsasları kimi" elmi-nəzəri konfransın materialları Bakı,2013, s 311-314

9. Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayığısı (RDT-nin "Komandorun addımları" tamaşasının təhlili müstəvisində.) Azərbaycan Texniki Universitetində H.Əliyevin anadan olmasının 90 illik yubleyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda respublika elmi konfransın materialları Bakı, 2013, may s 8-9

10. "Azərbaycanın ilk qadın rejissoru Gülcahan Güləhmədova –Martınova və Rus Dram Teatrı" Mədəniyyət: Problemlər və perspektivlər.Doktorant və gənc tədqiqatcıların VIII Beynəlxalq elmi konfransının materialları. Bakı,2014, s 53-55

# XÜLASƏ

“Gülcahan Güləhmədova-Martınovanın yaradıcılığında xarici və milli dramaturgiya nümunələrinin təcəssümü” adlanan dissetrtasiya işində rejissorluq fəaliyyətinin ilk 30 ilini Azərbaycan teatrının inkişafı müstəvisində Rus Dram Teatrına, digər 30 ilinisə teatr sənətinin pedaqogikasına həsr etmiş G.Ş. Güləhmədova-Martınovanın milli mədəniyyətdə rolu, sənətkar və vətəndaş mövqeyi, onun hazırladığı tamaşaların teatr poetikasına təsir miqyası obyektivcəsinə müəyyənləşdirilir. Tədqiqatda xarici və milli dramaturgiya nümunələrinin Güləhmədova-Martınova rejissurasında bədii-estetik təcəssümünün səciyyəvi əlamətləri bir cədvələ toplanır və bu cədvəl rejissorun peşəkarlıq kredosu, sənətkar üslubunun cövhəri kimi təqdim edilir. Araşdırmada Güləhmədova-Martınovanın tamaşaları konkret tarixi mərhələnin siyasi-ideoloji, mədəni mühiti və teatr hadisələri kontekstində öyrənilir, təhlilə çəkilir və bədii-estetik xüsusiyyətlərinin təsnifi aparılır.

Гасанзаде Айла Айдын гызы

“Воплощение образцов зарубежной и национальной драматургии в творчестве Гульджахан Гюлахмедова – Мартыновой”

## РЕЗЮМЕ

Гюльджахан Шуаулла кызы Гюльахмедова-Мартынова, будучи первой азербайджанкой, профессонально занимавшейся театральной режиссурой, создала беспрецендентное театральное наследие в культуре Азербайджана, в силу чего её творчество является уникальным обьектом для исследования. Первые 30 лет своего творчества она посвятила активной режиссуре в Азербайджанском Государственном Русском Драматическом Театре им. Самеда Вургуна, а следующие 30 лет своей жизни с большой любовью занималась педагогической деятельностью. В данной диссертации под названием «Параметры воплощения образцов западной, русской и национальной драматургии в творчестве Гюльджахан Гюльахмедова-Мартыновой» рассматривается масштаб влияния её репертуарной политики, спектаклей на поэтику современного Азербайджанского театра. В исследовании делается попытка создать парадигму характерных черт, особенностей художественно-эстетического стиля режиссёра, а также с помощью анализа её спектаклей объяснить причины мировоззренческих, политико-идеологических пристрастий художника.

Ayla Hasanzade

The incarnation of foreign and national drama samples in Guldjakhan Gulakhmedova-Martinova" s creativity

Summary

Guljahan Gulakhmedova-Martinova is the first female director of Azerbaijan. 30 years of her life was dedicated to the Russian Drama Theatre promoting foreign and Azerbaijani drama. Her life was really very difficult. Years of repression left memorable impressions on her childhood. Gulakhmedovas' family was one of thousands families who suffered in the years of repression. May be it was the reason of her choice this path, the path of Dramatic Arts. Big love for the arts and the theatre itself led her to the Theatre Institute. During those years, she studied with prominent directors such as Mekhti Mamedov, Adil Iskenderov, Rza Takhmasib.

She staged performances on the stage of Russian Drama Theatre which promoted spreading of national culture and strengthening of cultural relations with foreign countries. Her skills, outlook, public views were reflected in her career as a director. Despite of the fact that she devoted her creativity to foreign drama, it also promoted the national values of Azerbaijan. G.Gulakhmedova-Martynoa had a lot of support to the prosperity of Azerbaijan works within the walls of Russian Drama Theatre. She is very creative person, who played a leading role in the 90-years history of the Russian Drama Theatre.

Guljahan Gulakhmedova-Martinova reveals the role of individual personalities who made an enormous contribution to the development of the national theatre. She notes the theatrical life of Azerbaijan as the main factor of the social and cultural development.

Министерство Образования Азербайджанской Республики
Азербайджанский Государственный Университет Кульътуры и Искусств

на правах рукописи

Гасанзаде Айла Айдын гызы

# “Воплощение образцов зарубежной и национальной драматургии в творчестве Гульджахан Гюлахмедова – Мартыновой”

6212.01-Театральное искусство

Диссертации на соискании ученой степени доктора философии в области искусствоведения

## Автореферат

Баку-2014